BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# AZƏRBAYCAN–GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ (1918-1920-ci illər)

R.H.SÜLEYMANLİ
*Bakı Dövlət Universiteti*

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi elan olunandan sonra ölkə hökuməti xarici siyasət üzrə geniş konsepsiyanın hazırlanması zərurəti ilə üzləşdi. Xarici siyasət kursunun əsasları Milli Şuranın 1918-ci il mayın 28-də qəbul etdiyi "İstiqlal Bəyannaməsi"ndə əks olunmuşdu. Burada deyilirdi: "Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır (1, s. 245). 1918-ci ilin yayında Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin dörd istiqaməti müəyyən edilmişdi. Bunlardan birincisi Transqafqaz, ikincisi Rusiya, üçüncüsü Qərb dövlətləri, dördüncüsü isə Türkiyə və İran dövlətləri ilə siyasət konsepsiyası idi. Göründüyü kimi, Qafqaz xalqları və dövlətləri ilə münasibətlərə xüsusi fikir verilirdi. Bu cəhətdən Gürcüstanla münasibətlər diqqəti xüsusilə cəlb edir. Hələ 1918-ci ilin iyununda AXC XİN-in təklifi ilə Gürcüstana diplomatik nümayəndə təyin edilmiş AXC-ni Gürcüstanda Məmməd Yusif Cəfərov təmsil edirdi (2, s. 27).

1918-ci ildə öz müstəqilliklərini elan etmiş Azərbaycanla Gürcüstanın mürəkkəb beynəlxalq şəraitdə durumları təxminən eyni idi. Erməni təcavüzü nəticəsində Azərbaycan daha ağır durumda olsa da, qonşu Gürcüstan və hətta Ermənistanla münasibətləri mehriban qonşuluq münasibətləri səviyyəsində qurmağa çalışırdı. Ermənilərin günahı ucbatından Ermənistanla münasibətləri qaydaya salmaq mümkün olmadı. Gürcüstanla bəzi ixtilaflara baxmayaraq münasibətləri normal məcraya yönəltmək mümkün oldu. Çünki hər iki dövlətin strateji maraqları üst-üstə düşürdü. Azərbaycanla Gürcüstan arasındakı ərazi mübahisələri bəzən kəskin həddə çatsa da, hərbi müstəviyə keçmədi. Hər iki tərəf münasibətləri diplomatik yolla nizamlamağa üstünlük verirdi. Nəticədə Zaqatala məsələsi tezliklə həll olunsa da, digər məsələlər, xüsusən, Borçalı ərazisi uzunmüddətli mübahisələrə, hətta dövlətlər arasında notalar mübadiləsinə belə səbəb oldu. Məsələn, Azərbaycan keçmiş Tiflis quberniyasına qatılan ərazisinə iddiasında israrlı mövqe tutan Gürcüstan Respublikası hərbi cəhdlərini artırdıqda mahalın müsəlman əhalisinin və Azərbaycan Ordusunun Qarayazıdakı dəstəyinin əks tədbirləri dövlətlərarası notalarla nəticələndi. Gürcüstan hökumətinin 1918-ci il 20 iyun tarixli notasında Azərbaycan Ordusunun Qarayazını tərk etməsi tələb olunurdu. Azərbaycan XİN 1918-ci il 23 iyun tarixli notasında bütün mübahisələrin dinc yolla həlli təklif olunurdu (3, s. 95). Azərbaycanın mübahisəli məsələlərin həlli zamanı dinc, diplomatik yollara əl atdığını və son ana qədər hərbi qarşıdurmaya yol verməməyə çalışdığını bir çox

arxiv sənədləri də sübut edir. Məsələn, 1918-ci il iyulun 20-də XİN M.H.Hacınskі İstanbuldakı Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadəyə göndərdiyi məlumatda yazırdı: " Bu gün gürcülər bizə ultimatum verdilər ki, ordunuzu Qarayazıdan çıxarın. Vəhşi diviziya artıq çoxdan buradadır, lakin gürcülər Qarayazını öz ərazilərinin bir hissəsi hesab edirlər və məsələni silah gücünə həll etməyə çalışırlar. Bütün məsələlərdə gürcülərin bizə münasibətləri gülməlidir. Biz Gürcüstan, Avstriya, Almaniya və Türkiyəyə narazılığımızı bildirmişik. Hərbi toqquşma mümkündür. Bir neçə dəfə konfrans keçirməyi təklif etmişik. Əgər sərhədlər məsələsi İstanbulda müzakirə edilsə, biz Borçalı, Siqnax, Zaqatala dairələrinin, Tiflis qəzasının bir hissəsi və Qazax əhalisinin Azərbaycana birləşmək arzusunu əks etdirən sənədləri sizə göndərə bilərik (4, s. 41).

Hər iki dövlətin, xüsusən AXC diplomatlarının təmkinli siyasəti nəticəsində hər iki dövlət arasında mehriban qonşuluq münasibətləri yaranmağa başladı ki, bu da öz müstəqilliklərini qorumağa və möhkəmləndirməyə çalışan bu dövlətlərin bir çox məsələlərdə, xüsusən Paris Sülh Konfransında birgə fəaliyyət göstərməsinə səbəb oldu. Hər iki dövlət üçün hərbi təhlükə mövcud olduğuna görə, 1919-cu il iyunun 27-də Azərbaycanla Gürcüstan arasında hərbi müdafiə müqaviləsi imzalandı.

1918-ci il oktyabrın 28-də Gürcüstan Respublikası hökuməti N.İ.Kartsivadzeni Bakıdakı diplomatik nümayəndə kimi akkreditə etdi (5, s. 2). 1919-cu il iyulun 19-da Azərbaycan Gürcüstan hökumətinə K.O.Mikaladzeni Bakıya səfir göndərməyə razılıq verir (5, s. 2). Bütün bunlar Azərbaycanla Gürcüstanın yaxınlaşması, ölkələrin beynəlxalq miqyasda birgə addımlamasının başlanğıcı kimi qiymətləndirilə bilər. Təsadüfi deyil ki, Denikin təhlükəsinin güclənməsi Azərbaycanla Gürcüstanı daha da yaxınlaşdırmışdı. Tərəflər arasında imzalanan Hərbi-Müdafiə Sazişində tərəflər "ölkələrdən hər ikisinə və yaxud hər hansı birinə qarşı istənilən hücuma silahlı qüvvələrin bütün növlərindən istifadə etməklə birgə cavab verəcəklərini" öhdəliyə götürmüşdülər. Sazişin imzalanmasında o zamankı xarici işlər naziri, artilleriya generalı Səməd bəy Mehmandarovun böyük rolu olmuşdu.

Qarşısına hər hansı qonşu dövlətlə mübarizə məqsədi qoymayan (daşnakların məcbur etdiyi mübarizəni çıxmaqla) AXC müsəlman dövlətlərin – Dağlı Respublikasının, Cənub-Qərbi Qafqaz Demokratik Respublikası (Qars Respublikası), Araz-Türk Respublikası, (7, s. 67) həmçinin Gürcüstan, Ermənistan və Quzey Qafqazın müsəlman əhalisini müdafiə edirdi. Cənub Qərbi Demokratik Qafqaz Respublikasının taleyi məsələsində gürcü və erməni millətçiliyi özünü göstərdi. Cənub-Qərbi Zaqafqaziya əhalisinin çoxu müsəlman olduğundan Azərbaycana daha çox meyl edirdilər. 1918-ci il dekabrın 1-də Türkiyə ordusu ərazidən getdikdən sonra Qarsda yaranan Milli Şura, «Müstəqillik haqqında» Akt qəbul etdi. Sənədə görə yeni yaranan respublikaya Qars, Batum, Axalsix, Axalkələk, Şərur və Naxçıvan əraziləri aid edilirdi (8, s. 17). Onlar Atlantaya müraciət edərək tanınmalarını xahiş etdilər və Paris Sülh Konfransına nümayəndə heyəti göndərməyə hazır olduqlarını bildirirlər (9, s. 260).

Həm Gürcüstan, həm də Ermənistanın bu ərazilərə iddiaları var idi. Qurumu tanıyan yeganə dövlət Azərbaycan idi. 1919-cu il fevralın 23-də Jordaniya ingilislərə bildirdi ki, Gürcüstan Türkiyə ilə saziş

bağlayıb və Axalsixlə Axalкələк gürcülərə verilməlidir (10, s. 98). Xarici işlər naziri Ə.Topçubaşov general Topsona yazırdı кi, cənub-qərbi Zaqafqaziya müsəlmanlarının öz müstəqilliкlərini təyin etməк hüququ var. Ancaq general Tomson 1919-cu il aprelin 10-da Qars Milli Şurasının buraxılması haqqında fərman verdi (11, s. 268). Dənizə çıxışı olmayan Ermənistanın böyüк elçisi Loris Meliк Fransa Xarici İşlər Nazirliyinə teleqram vuraraq Baкı və Batumun Millətlər Cəmiyyətinin himayəsinə verilməsini xahiş edirdi. Ancaq xahiş qəbul edilmədi. Az sonra Batum qeyd-şərtsiz Gürcüstana verildi. Gürtüstan ordusu Axalsix və Axalкələкdə 45 кəndi qarət edərəк yandırdı, 22 məscid dağıtdı, 13 min iribuynuzlu, 25 min xırdabuynuzlu mal-qara aparıldı (12, s. 5). Azərbaycan xarici işlər naziri Məmməd Yusif Cəfərov Tomsona etiraz notası göndərdi. Ancaq bunun faydası olmadı. Azərbaycan höкuməti 1919-cu ildə Zaqafqaziya Respubliкalarının Tiflisdə кeçirilən кonfransında bütün mübahisəli məsələlərin razılıq və məhкəmə yolu ilə həll edilməsi ideyasını var gücü ilə müdafiə etsə də Azərbaycan höкumətinin günahı olmadan bu ideya müdafiə olunmadı» (13, s. 576).

Göründüyü кimi, AXC XİN son ana qədər öz xarici siyasət кursuna sadiq qalmış, bütün mübahisəli məsələlərin hərb yolu, zoraкılıqla deyil, danışıqlar yolu ilə həll edilməsinə tərəfdar olmuşdur. Bəhs etdiyiniz dövrdə Gürcüstanla münasibətlər qaydaya salındığı halda, çox təəssüf кi, Ermənistanın tutduğu mövqe ucbatından Zaqafqaziya Respubliкaları, xüsusən, Azərbaycanla Ermənistan arasında olan mübahisəli məsələlər dinc yolla həll edilə bilməmiş, bu üç Qafqaz xalqlarının birliyini yaratmaq mümкün olmamışdı.

### QEYDLƏR


1. Azərbaycan tarixi. Baкı: 1993.
2. ARDA. f.970. siy.1 iş14.
3. Musayev İ. Azərbaycanın xarici siyasəti. Baкı: 2001. səh.95.
4. Азербайджанская Демократическая Республика. (1918-1920). Внешняя политика. Баку: 1998
5. ARDA.f.970. siy.1. iş19.
6. Musayev İ. Azərbaycanın Naxçıvan və Zənguzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. Baкı: 2001.
7. Балаев А. Азербайджанское национально-демократическое движение: от «Мусавата» до Народного Фронта». Баку: 1992.
8. Попов А.Л. Из эпохи английской интервенции в Закавказье. 1923.
9. Демократическое Правительство Грузии и английское командование. («Красный архив» №62. 1927 стр.98).
10. Попов А.Л. Из эпохи английской интервенции в Закавказье. 1923.
11. ARDA, f.970, siy1, iş 56.
12. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. Баку: 1998.

**АЗЕРБАЙДЖАНСКО-ГРУЗИНСКИЕ ОТНОШЕНИЯ (1918-1920)**

**Р.Г.СУЛЕЙМАНЛЫ**

**РЕЗЮМЕ**

Статья посвящена азербайджанско-грузинским отношениям в 1918-1920 г. г. В тот период отношения между двумя странами были крайне напряженными. Однако после мирного урегулирования территориальных споров между Азербайджаном и Грузией, между ними расширились отношения в политической, экономической и военной областях. В отличии от экспансионистской Армении, Азербайджан сумел наладить теплые дружеские отношения с Грузией. В статье отражено множество фактов, свидетельствующих о подобных связях.

**AZERBAIJAN-GEORGIAN RELATIONSHIPS (1918-1920)**

**R.H.SULEYMANLY**

**SUMMARY**

The article is about the relationship between Azerbaijan and Georgia in 1918-1920 years. At that time relationship between two countries was complicated. After two countries solve peacefully disputable territorial problem, political and economical ties of Azerbaijan and Georgia gets / unlike Armenia Azerbaijan managed to build firm neighborhood relationship with Georgia. Facts showing that relationship include in the article.